# Qəbələnin sosial-iqtisadi inkişafı möhkəm zəminə söykənir

## 2019-cu ildə sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə dair Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin hesabat MƏRUZƏSİ

(Əvvəli 4-cü səhifədə).

digər kommunal xidmətləri göstərmişdir.

10 №-li Yol İstismarı MMC tərəfindən rayon ərazisində il ərzində 1.614,4 min manatlıq cari təmir və yolların saxlanması işləri görülmüşdür.

Qəbələ Telekommunikasiya Qovşağı 1.446,6 min manat tarif gəliri proqnozuna qarşı 1.469,8 min manat gəlir əldə etmiş, proqnoz tapşırığa 100,6 % əməl etmişdir. Ümumilikdə rayon üzrə 1 şəhər EATS-i (3.902 nömrə), 23 kənd EATS-i (8.384 nömrə), 2 mini EATS-i (64 nömrə) fəaliyyət göstərir ki, həmin EATS-rin ümumi montaj tutumu 12.350 nömrə təşkil edir. 1 kənd (2 nömrə) peyk rabitəsi ilə təmin olunub. Hazırda rayon üzrə hər 100 təsərrüfata düşən telefon abonentlərinin sayı orta hesabla 50 ədəd təşkil edir. İl ərzində şəhər və kənd əhalisinə 507 ədəd telefon çəkilmiş, 1.155 ədəd internet qoşulması verilmişdir. Genişzolaqlı internet xidmətindən istifadə edən abunəçilərin sayı 7.474 nəfər təşkil edir.

"Azərpoçt" MMC-nin Qəbələ Filialı 361,9 min manata qarşı 342,8 min manatlıq poçt-rabitə xidməti göstərərək proqnoz tapşırığı 19,1 min manat kəsrlə 94,7 % yerinə yetirmişdir.

Dövlət Sosial Müdafiə Fondunun rayon şöbəsində 1 yanvar 2020-ci il vəziyyətinə 11.992 pensiya işi üzrə 11.051 nəfər əmək pensiyaçısı qeydiyyatda olmuşdur. Hesabat dövründə pensiyaçılara ümumilikdə 26.939,9 min manat pensiya, 392,7 min manat məcburi dövlət sığorta haqları hesabına müavinətlər ödənilmiş, orta aylıq pensiya məbləği 2.414,1 min manat, bir pensiya işi üzrə isə orta aylıq pensiya məbləği 219 manat 62 qəpik təşkil etmişdir.

Hazırda şöbədə əmək pensiyalarından əlavə 4.724 ədəd hərəkətdə olan sosial müavinət, 2.270 ədəd təqaüd işi vardır. Həmin müavinətlərin və təqaüdlərin ödənilməsi üçün tələb olunan vəsaitin orta aylıq məbləği 772,9 min manat təşkil edir.

"Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununda edilmiş dəyişiklərə uyğun olaraq 1 mart 2019-cu il tarixdən 3.147 nəfər əmək pensiyaçısının pensiyasının məbləği 160 manata çatdırılmışdır. Bu da ümumilikdə pensiyaların ödənilməsi üçün 71,3 min manat tələbat yaratmışdır. 1 oktyabr 2019-cu il tarixdən isə, 7.714 nəfər əmək pensiyaçısının pensiyasının məbləği 200 manata çatdırılmışdır ki, bu da ümumilikdə pensiyaların ödənilməsi üçün 228,8 min manat əlavə vəsaitə tələbat yaratmışdır. İl ərzində 130 nəfərə avtomatlaşdırılmış qaydada pensiya təyin olunmuşdur.

Suvarma sistemləri idarəsi tərəfindən rayonun yaşayış məntəqələrinin sel sularından qorunması, kənd təsərrüfatının suvarma suyu ilə təminatı üçün suvarma kanalları 777 min kubmetr lildən, daşqın və selə qarşı mübarizə məqsədilə 1.126 min kubmetr çay məcrası daş və qumdan təmizlənmişdir. Hesabat ilində 286 kubmetr qabion bəndi qurulmuş, 1.479 kubmetr daş beton, 50 kubmetr şax bəndi cari təmir edilmişdir.

Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması və əhalinin içməli su tələbatının ödənilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin 12 fevral 2019-cu il tarixli Sərəncamına əsasən rayonun Yeni Dizaxlı, Kürd, Həmzəli, Zirik, Bılıx kəndlərində və Nic qəsəbəsində subartezian quyularında başlanmış qazma işləri yekunlaşmışdır. Hazırda həmin artezianların elektrik şəbəkəsinə qoşulması üçün sənədləşmə işləri aparılır.

> ***Qəbələdə sosial-iqtisadi inkişaf baxımından, abadlıq və quruculuq işləri sahəsində mühüm nailiyyətlər qazanılmışdır. Dağlar diyarının bügünkü inkişafı insanlarımızın hər şeyə qadir olduğunu sübut edir.***
>
> **İlham ƏLİYEV.**

2019-cu ildə Vəndam qəsəbəsində gülçülük istixanası kompleksi, Qəbələ şəhərində "Azərxalça" ASC-nin Qəbələ Filialı, "Azərişıq" ASC-nin 110/35/10 kilovoltluq elektrik yarımstansiyası, "Azərsu" ASC-nin Qəbələ şəhərinin içməli su və kanalizasiya sisteminin yenidən qurulması obyekti, Nic-Mıxlıqovaq-Yemişanlı-Uludaş-Tikanlı-Abrıx və Böyük Əmili-Bılıx-Əmirvan avtomobil yollarının yenidən qurulması obyektlərində tikinti-quraşdırma işləri başa çatdırılaraq istismara verilmişdir. Eləcə də rayonun Vəndam qəsəbəsində 2 nömrəli tam orta məktəb binası, Şəfili kəndində 20 yerlik, Qaradeyin kəndində 80 yerlik modul tipli məktəb binaları tikilərək istismara verilmiş, Tikanlı kənd ümumi orta məktəbin binası əsaslı təmir edilmiş, Mıxlıqovaq, Zarağan və Həmzəli kənd tam orta məktəblərinin dam örtüklərinin bir hissəsi dəyişdirilmişdir.

Eyni zamanda 2019-cu il ərzində 43 kilometrlik Ləki-Qəbələ dəmiryolunda və rayon mərkəzi xəstəxana kompleksində tikinti işləri davam etdirilmişdir.

Ötən il ərzində şəhərin 31 küçəsinə 197.774 kv.m asfalt örtük vurulmuşdur. Bundan 7 küçədə 14.650 kv.m asfalt örtük işi Qəbələ Bələdiyyəsinin vəsaiti hesabına aparılmışdır.

Bununla yanaşı müalicə diaqnostika mərkəzinin qarşısındakı 1,3 hektarlıq istirahət parkı əsaslı təmir olunaraq vətəndaşların istifadəsinə verilmişdir. Şəhərin Heydər Əliyev prospektində yerləşən 27, 29, 31 və 25a saylı beşmərtəbəli yaşayış binalarının yanğın təhlükəsi törədə biləcək üzlüyü sökülərək götürülmüş və həmin binaların fasadları təmir edilmişdir.

**Hörmətli tədbir iştirakçıları!**

Ölkə rəhbərliyinin diqqət və qayğısı nəticəsində millli təhsilimizin inkişafı üçün həm hüquqi, həm də maddi baza yaradılmış, təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndiril-

(Ardı 6-cı səhifədə).



*Prezident İlham Əliyev Böyük Əmili-Bılıx-Əmirvan avtomobil yolunun açılışında iştirak edib.*



*Prezident İlham Əliyev Böyük Əmili-Bılıx-Əmirvan avtomobil yolunun inşaatçıları ilə xatirə şəkli çəkdirib.*